Azərbaycan Respublikası Prezidentinin bədən tərbiyəsi və idman sahəsi ilə bağlı sərəncam və fərmanlarından irəli gələn vəzifələrin yerinə yetirilməsi vəziyyətini, fiziki tərbiyə və idman sahəsində qabaqcıl pedaqoji təcrübəni öyrənmək, təhsil sistemində idman və fiziki tərbiyə işini daha da yaxşılaşdırmaq, bu sahədə çalışan istedadlı idmançıları, məşqçi-müəllimləri aşkar etmək, onları rəğbətləndirmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. 2010-cu təqvim ilinin yekunlarına əsasən uşaq-gənclər idman və şahmat məktəbləri, idmançı və məşqçi-müəllimlər arasında aşağıdakı nominasiyalar üzrə respublika müsabiqəsi təşkil olunsun:

- ilin ən yaxşı ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbi;
- ilin ən yaxşı ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər şahmat məktəbi;
- şəhərlər üzrə ilin ən yaxşı uşaq-gənclər idman məktəbi;
- şəhərlər üzrə ilin ən yaxşı uşaq-gənclər şahmat məktəbi;
- kənd rayonları üzrə ilin ən yaxşı uşaq-gənclər idman məktəbi;
- kənd rayonları üzrə ilin ən yaxşı uşaq-gənclər şahmat məktəbi;
- oğlanlar arasında ilin ən yaxşı idmançısı;
- qızlar arasında ilin ən yaxşı idmançısı;
- oğlanlar arasında ilin ən yaxşı şahmatçısı;
- qızlar arasında ilin ən yaxşı şahmatçısı;
- idman məktəbləri üzrə ilin ən yaxşı məşqçi-müəllimi;
- şahmat məktəbləri üzrə ilin ən yaxşı məşqçi-müəllimi.

2. Respublika müsabiqəsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin 03.12.2004-cü il tarixli, 873 nömrəli əmri ilə təsdiq olunmuş qaydalara uyğun keçirilsin.

3. Müsabiqənin respublika mərhələsinə 2010-cu ilin dekabr ayında yekun vurulsun.

4. Naxçıvan MR Təhsil Nazirliyi, rayon, şəhər təhsil şöbələri, idarələri bu əmrdən irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə bağlı müvafiq tədbirlər görsünlər, respublika müsabiqəsinə təqdim ediləcək idmançı, məşqçi-müəllim və məktəblər haqqında məlumatları 10 dekabr 2010-cu ilə qədər nazirliyin Tərbiyə və məktəbdənkənar müəssisələr şöbəsinə təqdim etsinlər.

5. Tərbiyə və məktəbdənkənar müəssisələr şöbəsi (A.İbrahimov) müsabiqənin yüksək səviyyədə təşkili üçün təşkilati işlər görsün və yerli təhsil şöbələrinə köməklik göstərsin.

6. İqtisadiyyat şöbəsi (Ş.Əliyev) müsabiqə qaliblərinin mükafatlandırılması və diplomların hazırlanması üçün 1932 (min doqquz yüz otuz iki) manat vəsait ayrılmasını təmin etsin.

7. Ümumi şöbə (H.Məhərrəmova) müsabiqə qalibləri üçün hədiyyələrin alınmasını, diplomların hazırlanmasını və bu əmrin çoxaldılaraq təhsil şöbələrinə göndərilməsini təmin etsin.

8. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmri "Azərbaycan müəllimi" qəzetində dərc etdirsin.

9. Əmrin icrasına nəzarət nazir müavini E.Qasımova həvalə edilsin.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının təhsil naziri***
***2 noyabr 2010-cu il***